# Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti Azərbaycan Dillər Universitetində





Azərbaycanda səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 17-də Bakıda Azərbaycan Dillər Universitetində olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, burada keçirilən görüşdə universitetin rektoru Kamal Abdullayev bu təhsil ocağının fəaliyyəti, burada tədris olunan xarici dillər və görülən işlər barədə qonaqlara məlumat verib. Söhbət zamanı rektor qonaqları maraqlandıran sualları da cavablandırıb.

Görüşdə iştirak edən universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, Milli Məclisin deputatı Tamam Cəfərova neokolonializmə qarşı mübarizə, bu məqsədlə yaradılmış Bakı Təşəbbüs Qrupunun fəaliyyəti, Azərbaycanın neokolonializmdən əziyyət çəkən ölkələrə dəstəyi, ölkəmizin öz ərazilərini işğaldan azad etməsi və digər mövzularda fikirlərini bölüşüb. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 18 aprel, № 77.- S.5.